**İsmayıl Zaur oğlu XANMƏMMƏDLİ**
Bakı Dövlət Universitetinin, Fəlsəfə kafedrasının doktorantı
E-mail: khanmammadov99@gmail.com
ORCID ID: 0009-0001-4782-3309

# POSTMODERN DÜNYAGÖRÜŞÜNDƏ ŞƏXSİYYƏT VƏ TƏNHALIQ

**Xülasə**

Bu məqalədə postmodern dünyagörüşündə şəxsiyyətin qeyri-sabit və konstruktiv mövcudluğu və onun tənhalığına dair yanaşmalar araşdırılır. Modern dünyagörüşündən fərqli olaraq postmodern dünyagörüşündə şəxsiyyətin sosial əlaqələrinin zəifləməsi və onun atomarlaşması müşahidə edilməkdədir. Belə ki, sosial əlaqələrin zəifləməsi nəticəsində şəxsiyyətin mövcudluğu üçün zəruri olan mənəvi və sosial mənası ya ümumiyyətlə itir, ya da çoxalır. Müasir dövrdə şəxsiyyət mahiyyətini daimi olaraq mənalandırmağa cəhd edir. Lakin postmodern dünyagörüşündə sabit və ya lokal mənalandırma çərçivəsi yoxdur. Bu səbəbdən, şəxsiyyət üçün semantik qeyri-müəyyənlik mövcuddur. Həmin müxtəliflik isə öz növbəsində şəxsiyyətin tənhalaşması ilə nəticələnir. Şəxsiyyətin öz mahiyyətinə sosial və mənəvi formada birbaşa və sabit istinad edə biləcəyi çərçivə olmadığı zaman onun istər ekzistensial, istərsə də fenomenoloji baxımdan tənhalaşması qaçınılmaz olur. Bu baxımdan, postmodern dünyagörüşündə şəxsiyyətin mahiyyətini mənalandırmaq üçün istinad edə biləcəyi mənaların çoxalması, birbaşa mənanın itməsi kimi interpretasiya edilir. Postmodern dünyagörüşündə şəxsiyyət və tənhalıq anlayışlarını ekzistensial-fenomenoloji və sosial-fəlsəfi yanaşmalar əsasında təhlil etmək mümkündür. Ancaq təhlil olunan tənhalıq anlayışı şəxsiyyət üçün statik vəziyyət deyil, aktiv strukturlaşdırıcı təcrübədir. Postmodern dünyagörüşündə şəxsiyyətin mənəvi mahiyyətini mənalandırması kontekstində onun tənhalaşması zəruridir, çünki həmin tənhalıq mənalandırma prosesinin bir hissəsidir.

**Açar sözlər:** şəxsiyyət, postmodernizm, məna, tənhalıq, sosial əlaqələr.

**UOT:** 141.78: 159.923**:** 316.6
**DOI:** https://doi.org/10.54414/IEYM1177

## Giriş

Bu məqalənin məqsədi postmodern dünyagörüşündə şəxsiyyət və onun formalaşdığı şəraiti, eləcə də şəxsiyyətin tənhalıqla münasibətini təhlil etməkdir. Postmodern şəraitdə tənhalıq anlayışının şərhinin transformasiyası həm tənhalıq anlayışının, həm də tənhalığın şəxsiyyətin ictimai həyatında olan rolunun yenidən dəyərləndirilməsini zəruri edir. Müasir dövrdə baş verən sosial və mədəni transformasiyalar şəxsiyyətin istər mənəvi zəmində özünü mənalandırmasında, istərsə də sosial həyatında bir sıra dəyişikliklərə səbəb olmuşdur. Postmodern dünyagörüşündə şəxsiyyət çərçivələri müəyyən və bütün həyatına müncər edə biləcəyi məna sistematikliyini nəzəri və praktiki olaraq formalaşdıra bilmir. Bu prosesin baş verməsinə səbəb olaraq şəxsiyyətin və sosial mühitin qeyri-müəyyən xarakteri göstərilə bilər. Postmodern şəraitin daxilində qeyri-sabit münasibətlər ilə mövcudluğunu davam etdirən şəxsiyyət öz mənəvi mahiyyətini tapmaq və özü ilə üzləşmək üçün tənhalığı rasional formada seçir.

Postmodern dünyagörüşü nəzdində şəxsiyyətin tənhalığı sosial mühitin onu özündən uzaqlaşdırması, təcrid etməsi kimi şərh edilmir. Tənhalıq şəxsiyyətin aktiv formada öz mahiyyətini dərk etməyə cəhd etməsidir. Müasir dövrdə tənhalıq anlayışının təhlilində olan bu dəyişiklik yenidən şərh olunmalıdır, çünki modern dünyagörüşündə tənhalıq sosial təcrid kimi izah edilir. Lakin həmin nümunəni postmodern dünyagörüşündə

transformasiya etmiş tənhalıq anlayışı ilə uyğunlaşdırmaq qeyri-mümkündür.

Şəxsiyyətin tənhalığına digər bir səbəb onun mənəvi identikliyi ilə cəmiyyət daxilində sosial ölçüləri arasında formalaşan qeyri-adekvat münasibətlərin məcmusudur. Şəxsiyyət mənəvi introspeksiya etməməsinin nəticəsində özünü və sosial əlaqələrini nizamlaya bilmir, çünki onun öz daxili sərhəd və ya çərçivələri nizamlı deyil. Müasir dövrdə şəxsiyyət başqaları müstəvisində özünü mənalandırmağa cəhd göstərir. Bu baxımdan, postmodern dünyagörüşündə tənhalıq şəxsiyyət üçün prosessual əhəmiyyət kəsb edir və bir-birilə əlaqə formasında dəyərləndirilir. Beləliklə müasir dövrdə şəxsiyyətin mənəvi mahiyyətini formalaşdırması üçün tənhalıq zəruri mərhələ hesab edilir.

**Şəxsiyyət anlayışının mənalandırılması və semantik qeyri-müəyyənlik.** Modern dünyagörüşü anlayışlara birbaşa, sabit və müəyyən təriflər verdiyi halda, postmodern dünyagörüşü mənalandırma prosesində tamamilə zidd mövqedən çıxış edir. Hər hansısa bir dünyagörüşü modelinin çərçivələrini və konturlarını müəyyən etmək və onu anlamaq üçün onun həyata, mövcudluğa dair hansı mənalandırma kodekslərindən çıxış etdiyini qavramaq zəruridir. Bu baxımdan, mənalandırma prosesi ümumi bir dünyagörüşünün zəminini təşkil edir. Təhlil edilən iki dünyagörüşü müstəvisində (modern və postmodern) mənanın pluralizasiyası fərqlilik təşkil edir. Belə ki, modern dünyagörüşündə şəxsiyyət üçün lokal, sabit və müəyyən məna olduğu halda, postmodern dünyagörüşündə bu şəxsiyyətin mövqeyi baxımından zaman və məkan daxilində fəaliyyətləri nəzdində tamamilə dəyişir. Məna artıq obyektiv deyil, subyektiv fenomen kimi interpretasiya edilir. Yəni, hər bir şəxsiyyətin özünə və ətraf mühitə dair mənalandırma cəhdləri tamamilə subyektivdir. "Postmodernizmdə "mənanın itirilməsinə" təəssüf etmək əsasən biliklərin artıq ani və sabit olmamasına məyus olmaq deməkdir." [1 s.55]. Mənanın obyektivliyi və aniliyi şəxsiyyətin istinad etdiyi narrativlə birbaşa əlaqəlidir. Şəxsiyyət bir bütün olaraq mövcudluğu necə mənalandırırsa, hər bir situasiya daxilində həmin narrativə uyğun davranışlarını nizamlayır. Lakin postmodern dünyagörüşündə şəxsiyyətin sabit və müəyyən hər hansısa bir narrativi, yəni mənası olmadığı üçün onun mənalandırma cəhdləri davamlı formada dəyişir. Dolayısıyla, postmodern dünyagörüşündə şəxsiyyət üçün məna ani və sabit xarakterə malik deyil.

Məna çoxluğu öz növbəsində həqiqətin təsvirinin də çoxluğu kimi şərh olunur. Postmodern dünyagörüşündə həqiqət statik və obyektiv formada deyil, subyektiv yanaşma kimi dəyərləndirilir. Buna görə də, postmodern dünyagörüşündə cəmiyyətin mövqeyindən daha çox şəxsiyyətin mövqeyi zəruridir. Şəxsiyyətin davamlı dəyişən sosial-iqtisadi münasibətlərin məcmusu onun özünü və ətraf mühiti mənalandırma formasına müncər olunur. Eyni məntiq əsasında, postmodern dünyagörüşündə həqiqət insanın dünyanı təsvir etmə forması kimi dəyərləndirilir. "Həqiqət "orada" ola bilməz – insan zehnindən müstəqil şəkildə mövcud ola bilməz – çünki cümlələr belə mövcud ola bilməz və ya "orada" yerləşə bilməz. Dünya "oradadır", lakin dünyanın təsvirləri "orada" deyil. Yalnız dünyanın təsvirləri doğru və ya yalan ola bilər. Dünya öz-özlüyündə – insanların təsvir edici fəaliyyətləri olmadan – doğru və ya yalan ola bilməz." [2, s.5]. Fikrimizcə, bu nəticəni çıxarmaq mümkündür ki, dünya canlı üçün birbaşa təsvirlə əlaqəli, təsvir isə eyni formada bilavasitə insana bağlıdır. Şəxsiyyət üçün sosial həyat daxilində həqiqət müəyyən və yekdil mənalandırmaya tabe olmadığına görə o nə tamamilə özünü, nə də ətraf mühiti bir bütün olaraq mənalandırmağı və mahiyyətini anlamağı bacarmır. Şəxsiyyət hər bir fəaliyyətində mövqeyini formalaşdırmaq və ona uyğun olaraq davranmaq məcburiyyətindədir. Çünki onun sosial mühit daxilində mövcudluğunu davam etdirmək üçün davamlı şəkildə dəyişən həqiqət və dünyanın təsviri prinsipinə sadiq olmaqdan başqa şansı yoxdur. "…amma əgər onlar eyni şəxsiyyət təsvirlərinə sahib olmasaydı, onlara ayrılacaq heç bir mövcudluq tərzi olmazdı." [3, s.490]. Bu baxımdan, şəxsiyyət qaçınılmaz formada cəmiyyət daxilində situativ və fraqmentar xarakterli özünün məna və həqiqətini yaradır. Beləliklə, həqiqət və məna postmodern dünyagörüşündə

şəxsiyyət üçün dil vasitəsilə qurulur. Postmodern şəraitdə dil həm mənalandırma prosesində funksional əhəmiyyət kəsb edir, həm də şəxsiyyətin fraqmentar xüsusiyyətinin davamlılığını təmin edir. Nəticə etibarilə, məna artıq ontoloji əsaslandırma kimi şərh edilmir. Mənalandırma prosesi sadəcə estetik əhəmiyyət kəsb edən şəxsiyyətin çoxsaylı mövqeyindən ibarətdir. "Estetik keyfiyyət artıq ontoloji əsaslara söykənmir və hər hansı praktik və ya idrak xarakterli istinad nöqtələrindən məhrum olması baxımından mənfi formada müəyyən olunur; çünki o, mahiyyət etibarilə müşahidəçinin tutduğu konkret mövqe ilə bağlıdır." [4, s.122]. Müşahidəçi, yəni şəxsiyyət üçün yalnız onun tutduğu mövqe etibarilə mənanın produktiv əhəmiyyəti vardır. Postmodern dünyagörüşündə şəxsiyyət artıq mənalandırma prosesində istinad nöqtələrindən məhrumdur, çünki statik və sabit narrativlərlə deyil, prosessual və davamlı olaraq dəyişən interpretasiyalar vasitəsilə mövcudluğunu davam etdirir.

Postmodern dünyagörüşündə şəxsiyyət hazır və statik fenomen deyil. O, mənalandırma prosesində aktiv formada iştirak edən subyektdir. Bu baxımdan, reallıq öz əhəmiyyətini itirmişdir. Reallıq sadəcə şəxsiyyətin özünə və ətraf mühitə verdiyi şərhlərdən ibarətdir. Mənanın reallığın kənarında qalması onu istehsal edən şəxsiyyətlər arası ünsiyyətin də reallığın xaricində qalması kimi interpretasiya edilə bilər. "Məna və kommunikasiya hiperreallıq səviyyəsinə çatmışdır. Reallığın sonunu müəyyən edən isə məhz daha artıq real kimi görünən şeydir." [5, s.124]. Şəxsiyyətin həyatında onu və ətrafını mənalandıran fenomenlərin real olub-olmaması artıq onun üçün heç bir məna kəsb etmir. Modern şəxsiyyətin dünyagörüşü reallığa əsaslanır. Postmodern şəxsiyyətə görə isə reallıq onun dünyagörüşünə tabedir. Eyni məntiq əsasında, postmodern dünyagörüşü daxilində şəxsiyyət üçün məna anlayışı semantik qeyri-müəyyən xarakterə malikdir. Anlayışlar qeyri-mərkəzi, qeyri-sabit və qeyri-müəyyən xüsusiyyətləri özündə cəmləşdirirsə, anlayışların mənalandırma prosesi insandan-insana və zaman və məkan daxilində fərqli formada qavranılırsa və ümumi konsensus düşüncə itirsə bu vəziyyət vahid formada semantik qeyri-müəyyənlik kimi xarakterizə oluna bilər. Semantik qeyri-müəyyənlik postmodern şəxsiyyətin tənhalaşmasına səbəb olur. Mənanın qeyri-müəyyənliyi, şəxsiyyəti tənhalaşdıran amillərin ən başlıcasıdır.

**Postmodern dünyagörüşündə sosial əlaqələrin zəifləməsi və tənhalığın formalaşması.** Postmodern dünyagörüşündə sosial əlaqələrin zəifləməsi faktı iki formada şərh oluna bilər. İlk növbədə, şəxsiyyətin sosial əlaqələrə funksional yanaşması sosial əlaqələri zəiflədən səbəblərdən biridir. Belə ki, postmodern dünyagörüşündə şəxsiyyət sosial əlaqələrə məqsəd kimi deyil, vasitə kimi yanaşır. Şəxsiyyətin sosial əlaqələri, onun məqsədi üçün istifadə edilən vasitələrdən biridir. Artıq cəmiyyət daxilində mövcud olmaq və sosial əlaqələr yaratmaq şəxsiyyətin həyatında mənəvi baxımdan əhəmiyyətli rola malik deyil. Hər hansısa bir sosial əlaqə şəxsiyyətin həyatında onun məqsədi üçün funksionallıq daşıdığı müddət ərzində zəruri hesab edilir. İkinci növbədə, postmodern dünyagörüşündə şəxsiyyət fərdiləşərək özünü öz layihəsi kimi dərk etməkdədir. "Fərdiləşmə prosesləri çox dinamik xarakter daşıyır; onlar sosial strukturun interpretasiyasında qeyri-müəyyənliklərdən yayınmağı çətinləşdirir." [6, s.92]. Hər bir şəxsiyyət həyatı boyu daxilində yaşadığı sosial sistemi və strukturu şərh etməyə çalışır. Postmodern şəraitdə şəxsiyyət bu şərhləri günbəgün dəyişdirmək məcburiyyətindədir. Bu proses şəxsiyyət üçün qeyri-müəyyənliyi formalaşdırır. Şəxsiyyətin dünyagörüşü, yaşadığı cəmiyyətə aid şərhi, özünə və sosial münasibətlərinə dair düşüncələri müəyyən və sabit xarakterə malik deyil. Ümumi olaraq şəxsiyyətin bu şərait daxilində fərdiləşməsi qaçınılmaz prosesin təzahürüdür. Fərdi formada hər kəsin öz-özü üçün əhəmiyyətə sahib olmasının nəticəsi birbaşa sosial əlaqələrin zəifləməsidir.

Postmodern dünyagörüşündə şəxsiyyətin sosial münasibətləri adət-ənənələrlə, dəyərlərlə və ya normalarla strukturlaşmayıb. Onun istər dostluq və sevgi, istərsə də ailə və iş münasibətləri fərdi seçim və emosional razılıqla qurulur. "Sosial yaxınlıq digəri

tərəfindən mənimsənilmək deyil, onun xüsusiyyətlərini tanımaq və eyni zamanda öz xüsusiyyətlərini açıq şəkildə təqdim etməkdir. Digərinə açılmaq, paradoksal olaraq, şəxsi sərhədlərin mövcudluğunu tələb edir, çünki bu, kommunikativ bir fenomendir; eyni zamanda həssaslıq və incəlik tələb edir, çünki bu, heç bir şəxsi düşüncənin mövcud olmadığı bir vəziyyətlə eyni deyil." [7, s.94]. Postmodern dünyagörüşündə şəxsiyyətlər arası sosial yaxınlıq tamamilə baş vermir, çünki hər bir şəxsiyyət öz şəxsi sərhədlərini qoruyaraq emosional yaxınlıqdan çəkinir. Bu baxımdan, sosial yaxınlıq cəmiyyətin daxilində insanların arasında emosional və mənəvi dərinliyə malik olan ünsiyyət, bilik və ya dünyagörüşünün mübadiləsi kimi şərh olunursa, postmodern şəraitin daxilində bu formada sosial yaxınlıq mövcud deyil. Belə ki, postmodern şəraitdə hər bir şəxsiyyət özünəxas sərhədləri müəyyənləşdirərək mənəvi və emosional yaxınlıqdan tamamilə yayınmaqdadır. Fikrimizcə, bu proses postmodern şəxsiyyətin sosial yaxınlığı rasionallaşdırma cəhdi kimi interpretasiya edilə bilər. Sosial yaxınlığın rasionallaşdırılması cəmiyyət daxili münasibətlərin fərdi formada nizamlamaqdır. Şəxsiyyətlər bir-birilərinə etibar etmədikləri üçün emosional reallıqlarını qarşı tərəfə ötürmək əvəzinə emosional və mənəvi tərəflərini məhdudlaşdırırlar. Sosial münasibətlərin mənəvi dərinliyinin olmaması, bir sıra hisslərin rasionallaşdırılması şəxsiyyətlərin bir-birinə qarşı sədaqətinin, etibarının və etimadının zəifləməsi ilə nəticələnir. "Səbirsiz və mövcud an üzərində fokuslanmış bir cəmiyyətdə, hansı xüsusiyyətimizin davamlı dəyər daşıdığına necə qərar verə bilərik? Qısa müddətə yönəlmiş bir iqtisadi sistemdə necə uzunmüddətli məqsədlərə sahib ola bilərik? Hər an parçalanan və ya daim yenidən formalaşdırılan nəzəriyyələrdə qarşılıqlı sədaqət və bağlılıq necə davam etdirilə bilər?" [8, s.11]. Postmodern dünyagörüşündə şəxsiyyətin sosial məqsədləri uzunmüddətli formada mövcud olmur. O sadəcə anı yaşayır və anın daxilində məqsədini reallaşdırmaq üçün fəaliyyətdə olur. Məqsədin qısamüddətli olması onun mənəvi və emosional heç bir dərinliyə malik olmaması kimi şərh edilir. Şəxsiyyətin məqsədləri kimi sosial əlaqələri də daimi formada dəyişir və yenidən inşa edilir. Bu baxımdan, sosial münasibətlər prosessual olaraq şəxsiyyəti tənhalığa istiqamətləndirir, çünki hər kəs digərlərinin özü kimi qeyri-müəyyən və səthi rol icra etdiyini anlayır.

Postmodern şəraitin daxilində şəxsiyyətlərin bir-birinə qarşı bu qədər məsafəli olması onların düşüncəsində ksenofobiyanın yaranmasına səbəb olur. Artıq eyni cəmiyyətdə var olan insanlar bir-birilərinə qarşı yad və düşmən kimi davranırlar. Eyni məntiq əsasında, sosial əlaqələr zəifləyir və ya ksenofobiya zemininin üzərində yenidən qurulur. "Planet üzərində bir kabus dolaşır: ksenofobiya kabusu. Köhnə və yeni, heç vaxt tam sönməmiş və ya buzları yeni ərimiş, yaxın zamanda yenidən alovlanmış etnik əsaslı etibarsızlıq hissləri və kinlər, maye modern həyatın qeyri-müəyyənliyi və etibarsızlığından törəyən yeni təhlükəsizlik qorxusu ilə qarışmışdır." [9, s.165]. Şəxsiyyət artıq cəmiyyət daxilində digərlərinə etimad bəsləmir. Eyni zamanda, insanlar digərlərini potensial risk kimi qavrayır. Bu baxımdan, bir-birilərinə etibar etməyən şəxsiyyətlərin arasında sosial məsafə yaranır və sosial əlaqələr zəifləyir. Şəxsiyyət postmodern şəraitdə ictimai həyatda iştirak etsə belə, o özünə qapanaraq daxili təcrid vəziyyəti yaradır. Beləliklə, şəxsiyyətlər arası etimadsızlıq və təhlükəsizlik qorxusu sosial-psixoloji müstəvidə tənhalıq hissinin formalaşmasına səbəb olur.

**Tənhalığın şəxsiyyətin formalaşmasında rolu.** Postmodern dünyagörüşündə tənhalıq artıq birbaşa sosial təcrid kimi deyil, fərdin mənəvi və sosial münasibətlərini davam etdirə bilməməsi kimi şərh olunur. Qloballaşma və sosial medianın böyük inkişafı nəticəsində fərdlərin bir-biriləri ilə ünsiyyətinin davamlılığı təmin olunur. Eyni məntiq əsasında, tənhalıq problematik, statik və psixoloji sarsıntı formasında interpretasiya edilir. Ətrafında digər insanların olmasına baxmayaraq bir insan özünü tənha hiss edə bilər. Tənhalıq anlayışına təklikdən fərqli olaraq ətrafımızdakı insanların sayı bilavasitə təsir etmir [10, s.14]. Fikrimizcə, postmodern dünyagörüşündə şəxsiyyətin öz mahiyyətini

dərk etməsi və öz prinsip və məqsədlərini inşa edərək icra etməsi üçün prosessual formada tənhalıq mərhələsini tamamlamalıdır. Bu yanaşma əsasında tənhalıq anlayışı post-modern dünyagörüşü nəzdində həm ontoloji, həm də praktiki və sosial zəmində şərh oluna bilər.

Postmodern şəraitdə şəxsiyyət qeyri-sabit və davamlı formada dəyişən sosial münasibətlər daxilində mövcudluğunu davam etdirir. Bu baxımdan, şəxsiyyət fərdi dünya-görüşünə uyğun davrandığını düşünməsinə baxmayaraq o hər kəs kimi öz mahiyyəti və ya mənəvi identikliyi barədə düşünmədən qeyri-sabit, fraqmentar və situativ şəxsiyyətə çevrilir. Hər kəsdən biri olan şəxsiyyət kimi mövcudluğunu davam etdirmək postmodern şəraitin başlıca göstəricilərindən biridir. “Hər kəsin daim hər kəsə istinad edə bilməsi kimi bir imkanı mövcuddur. Hər kəs məsuliyyəti asanlıqla üzərinə götürə bilər, çünki lazım gəldikdə cavab verməli olduğu konkret bir subyekt yoxdur.” [11, s.202]. Şəxsiyyət mənəvi mahiyyətini dərk etmədiyi təqdirdə, özünəxas prinsip, məqsədlər və nəticə etibarilə məsuliyyət formalaşdırma imkanı olmur. Hər hansısa bir şəxsiyyətin cəmiyyət daxilində etdiyi istənilən davranış modelinin çərçivələri cəmiyyət tərəfindən müəyyənləşdirilib, çünki fəaliyyəti icra edən şəxsiyyət cəmiyyətə və hər kəsə istinad edir. Modern dünyagörüşündən fərqli olaraq postmodern dünyagörüşündə şəxsiyyət birbaşa müəyyən nəzəri çərçivəyə istinad etməməkdədir, çünki belə bir çərçivə yoxdur. Şəxsiyyət sadəcə zaman və məkan daxilində situativ və qeyri-müəyyən nəzəri konturları qəbul edərək ona uyğun formada sosial münasibətlərini tənzimləyir. Artıq şəxsiyyət özünü özü dərk etməyə çalışmır, əksinə, bu prosesi başqası vasitəsilə reallaşdırır. “Başqasının baxışının ortaya çıxması, mənim prinsip etibarilə tək halda əldə edə bilməyəcəyim bir ‘yaşanmış təcrübə’ vasitəsilə təzahür edir: bu, eyni-zamanlı təcrübədir.” [12, s.360]. Belə ki, postmodern şərait daxilində şəxsiyyət başqası vasitəsilə özünü anladığına, dərk etdiyinə inandırır. Lakin başqaları vasitəsilə şəxsiyyətin bilavasitə öz mahiyyətini anlayıb dərk etməsindən bəhs oluna bilməz, çünki başqası vasitəsilə şəxsiyyətin özünü anlaması birbaşa başqasının mövcudluğuna tabe olan dərketmə üsuludur. Yəni, başqası olmadığı təqdirdə həmin şəxsiyyətin formalaşdırdığı bütün nəzəri zəmin öz produktivliyini itirir. Bu baxımdan, şəxsiyyətin cəmiyyət daxilində öz mövcudluğunu daimi formada başqalarına istinad edərək davam etdirməsi sadəcə şəxsiyyətin sosial təzahüründən ibarətdir. “Başqaları ilə birlikdə olduğum müddətcə öz varlığımın yalnız qismən fərqindəyəm; mən, başqalarına açıq formada görünən kimi olan varlıq olaraq təzahür edirəm.” [13, s.214]. Şəxsiyyətin sosial təzahürü və ya sosial mühit daxilində özünü nümayiş etdirməsi onun öz mənəvi mahiyyətini dərk etməsi kimi şərh oluna bilməz. Postmodern şəraitdə şəxsiyyət öz mənəvi mahiyyətini dərk etmək üçün müəyyən müddət tənhalıqla barışmalıdır.

İnsanın tənha qalması passiv deyil aktiv fəaliyyətin başlanğıcıdır, çünki fərd üçün seçilmiş hər bir tənhalıq nümunəsi xüsusi əhəmiyyət kəsb edir. “Fərdin özünə yönəlmiş fəaliyyəti yalnız tənhalıq məşqi deyil, əslində real bir sosial praktika təşkil edir.” [14, s.347]. Şəxsiyyətin formalaşmasında tənhalıq onun özü ilə üzləşməsi kimi şərh edilir. Sadəcə bu formada şəxsiyyət öz-özünə şərh verir, mənalandırır və özünü dərk edir. Eyni zamanda, bu proses şəxsiyyətin sosial münasibətlərini də nizamlamaqdadır. Belə ki, şəxsiyyət artıq sosial mühit daxilində etdiyi hər bir fəaliyyətin nəzəri zəminini özü formalaş-dırıb və birbaşa özünə istinad etməkdədir. Bu baxımdan, şəxsiyyətin formalaşması, özünü dərk etməsi və cəmiyyət daxilində qurduğu hər bir münasibəti rasional dəyərləndirməsi üçün tənhalıq təkzibedilməz rola malikdir.

**Nəticə**

Yekun olaraq qeyd etmək mümkündür ki, postmodern kontekstin daxilində şəxsiyyət üçün tənhalıq yeni məna qazanır. Artıq tənhalıq şəxsiyyətin cəmiyyətdən təcrid olunması kimi statik bir ümumi konsensusun kənarında şərh olunur. Postmodern şəraitdə tənhalıq şəxsiyyətin cəmiyyəti və ətraf mühiti mənalandırma cəhdindən ziyadə bilavasitə özünü mənalandırma cəhdinin praktiki formada reallaşmasından ibarətdir. Modern

dünyagörüşündə tənhalıq şəxsiyyətin ətrafını mənalandıra bilməməsinin sabit nəticəsidir. Lakin postmodern dünyagörüşündə şəxsiyyətin özünü dərk etməsi və mənəvi mahiyyətini mənalandırması üçün tənhalıq prosessual mərhələdir. Müasir dövrdə sosial münasibətlərin xarakteri dəyişərək səthiləşir və şəxsiyyətin daxili və ya mənəvi bütövlüyünü təmin etmir. Bu baxımdan, tənhalıq postmodern şəraitdə şəxsiyyətin formalaşmasında strukturlaşdırıcı və aktiv mexanizm kimi interpretasiya edilir. Tənhalıq ontoloji, sosial və psixoloji aspektləri özündə birləşdirərək şəxsiyyətə özünü dərk edərək istinad edə biləcəyi nəzəri zəmin inşa etmək üçün zəruri mərhələdir. Nəticə etibarilə, postmodern konteksdə tənhalığın təcrübəsi şəxsiyyətin mənəvi mövcudluğunun əsaslandırılmasında mühüm əhəmiyyətə malikdir.

## ƏDƏBİYYAT SİYAHISI

1. Lyotard J.F. Postmodern Durum. Ankara: BilgeSu Yayıncılık, 2013.
2. Rorty R. Contingency, irony, and solidarity. Cambridge: Cambridge University Press, 1989.
3. Foucault M. Kelimeler ve Şeyler: İnsan Bilimlerinin Bir Arkeolojisi. Ankara: İmge kitabevi, 2001.
4. Vattimo G. The End of Modernity: Nihilism and Hermeneutics in Postmodern Culture. Baltimore: The Johns Hophkins University Press, 1988.
5. Baudrillard J. Simülakrlar ve Simülasyon. Ankara: Doğu Batı Yayınları, 2024.
6. Beck U. Risk Society: Towards a New Modernity. London: Sage Publications, 1992.
7. Giddens A. The Transformation of Intimacy: Sexuality, Love, and Eroticism in Modern Societies. Stanford: Stanford University Press, 1992.
8. Sennett R. Karakter Aşınması: Yeni Kapitalizmde İşin Kişilik Üzerindeki Etkileri. İstanbul: Ayrıntı Yayınları, 2008.
9. Bauman Z. Akışkan Aşk: İnsan İlişkilerine Kırılganlığına Dair. İstanbul: Versus Kitap, 2012.
10. Turkle S. Alone Together: Why We Expect More from Technology and Less from Each Other. New York: Basic Books, 2011.
11. Heidegger M. Varlık ve Zaman. İstanbul: Alfa Yayıncılık, 2021.
12. Sartre J.P. Varlık ve Hiçlik: Fenomenolojik Ontoloji Denemesi. İstanbul: İthaki, 2011.
13. Arendt H. Zihnin Yaşamı. İstanbul: İletişim Yayıncılık, 2018**.**
14. Foucault, M. Cinselliğin Tarihi. İstanbul: Ayrıntı Yayınları, 2007.

**Ismayil Zaur KHANMAMMADLI**
PhD student at the Department of Philosophy, Baku State University

## PERSONALITY AND LONELINESS IN THE POSTMODERN WORLDVIEW

**Summary**

This article examines approaches to the unstable and constructive existence of personality and its loneliness in the postmodern worldview. Unlike the modern worldview, in the postmodern worldview, the weakening of social connections of personality and its atomization are observed. As a result of the weakening of social connections, the moral and social meaning necessary for the existence of personality either completely disappears or multiplies. In the postmodern worldview, personality constantly attempts to make sense of its essence. However, in the postmodern worldview, there is no stable or localized framework for meaning-making. For this reason, semantic indeterminacy exists for personality. This diversity, in turn, results in the isolation of personality. When there is no framework to which personality can directly and stably refer socially and morally to its essence, its loneliness is inevitable both from existential and phenomenological perspectives.

From this perspective, in the postmodern worldview, the proliferation of meanings to which personality can refer in order to make sense of its essence is interpreted as the direct loss of meaning. It is possible to analyze the concepts of personality and loneliness in the postmodern worldview based on existential-phenomenological and social-philosophical approaches. However, the concept of loneliness under analysis is not a static condition for the personality, but an active structuring experience. In the context of personality making sense of its moral essence in the postmodern worldview, its loneliness is necessary, as this loneliness is part of the meaning-making process.

**Keywords:** persona, postmodernism, meaning, loneliness, social relations.

**Исмаил Заур ХАНМАММАДЛИ**
Аспирант кафедры философии Бакинского Государственного Университета

## ЛИЧНОСТЬ И ОДИНОЧЕСТВО В ПОСТМОДЕРНИСТСКОМ МИРОВОЗЗРЕНИИ

**Резюме**

В данной статье рассматриваются подходы к нестабильному и конструктивному существованию личности и её одиночеству в постмодернистском мировоззрении. В отличие от современного мировоззрения, в постмодернистском мировоззрении наблюдается ослабление социальных связей личности и её атомизация. В результате ослабления социальных связей моральное и социальное значение, необходимое для существования личности, либо полностью исчезает, либо умножается. В постмодернистском мировоззрении личность постоянно пытается осмыслить свою сущность. Однако в постмодернистском мировоззрении отсутствует стабильная или локализованная рамка для смыслообразования. По этой причине для личности существует семантическая неопределённость. Это разнообразие, в свою очередь, приводит к изоляции личности. Когда отсутствует рамка, к которой личность может напрямую и стабильно обращаться социально и морально по отношению к своей сущности, её одиночество неизбежно как с экзистенциальной, так и с феноменологической точки зрения. С этой точки зрения, в постмодернистском мировоззрении увеличение числа значений, к которым личность может обращаться для осмысления своей сущности, интерпретируется как непосредственная утрата смысла. В постмодернистском мировоззрении возможно анализировать понятия личности и одиночества на основе экзистенциально-феноменологического и социально-философского подходов. Однако анализируемое понятие одиночества для личности является не статичным состоянием, а активным структурирующим опытом. В контексте осмысления личностью своей моральной сущности в постмодернистском мировоззрении её одиночество необходимо, поскольку это одиночество является частью процесса смыслообразования.

**Ключевые слова:** личность, постмодернизм, смысл, уединение, социальные связи.

**Daxil olub:** 22.04.2026